DOI: https://doi.org/10.36719/2663-4619/122/40-43

**Şəkər Hüseynova Seyfullayeva**
Heydər Əliyev adına Hərbi İnstitut
https://orcid.org/0009-0003-1718-3317
sheker.huseynova@bk.ru
**Əsli Qurbanova**
Heydər Əliyev adına Hərbi İnstitut
https://orcid.org/0009-0004-5844-0225
asligurbanova7@gmail.com
**Əfsanə Əliyeva**
Heydər Əliyev adına Hərbi İnstitut
https://orcid.org/0009-0008-4978-9790
afsanaaliyeva43@gmail.com

# İngilis dili dərslərində kommunikativ bacarıqların inkişaf etdirilməsi yolları

**Xülasə**

Təqdim olunmuş bu məqalə ingilis dilində ünsiyyət vərdişlərinin inkişafı və təkmilləşdirilməsinin ətraflı təhlilini izah etmək məqsədi daşıyır. Dilin öyrənilməsində ünsiyyətin əsas rolunu anlayaraq, bu elmi iş dili öyrənənlər arasında kommunikasiya vərdişlərini inkişaf etdirmək üçün müxtəlif yolları, metodologiyaları və perspektivli yanaşmaları tədqiq edir. Kommunikativ vərdişlərin mahiyyətini araşdıraraq və praktiki yanaşmaları izah etməklə bu tədqiqat üsulu öyrədənləri ünsiyyət vərdişlərinin inkişafını optimallaşdırmaq üçün mühüm nüanslarla təmin edir. Bu məqalə təsirli kommunikasiyaya sövq edən dinamik dilöyrənmə sahəsi yaratmaq üçün interaktiv vərdiş və fəaliyyətlərini, orijinal öyrənmə vasitə və materiallarının, texnologiyanın və real həyat tətbiqlərinin qarşılıqlı əlaqəsini araşdırır. Müasir elm mühitində və dünyada ingilis dilində təsirli ünsiyyət qurmaq bacarığı vacib amillərdən biri və demək olar ki, ən birincisidir. Çünki öyrənilən elmi, qazanılan təcrübəni, əldə olunan bilik və bacarıqları tətbiq etməklə yanaşı, onu düzgün və aydın şəkildə təqdim etmək də lazımdır. Həmçinin bu elmi məqalə xarici dil dərslərində kommunikasiya vərdişlərini inkişaf etdirmək və təkmilləşdirmək üçün strategiya və metodları araşdırmaq məqsədi daşıyır. Məqalədə ünsiyyət bacarıqlarının inkişaf etdirilməsinin əhəmiyyətindən bəhs edilir və öyrənənlərin kommunikasiya bacarıqlarını irəlilətmək üçün öyrədənlərə praktiki məsləhətlər verilir.

***Açar sözlər:*** *ingilis dili, ünsiyyət, strategiya, metodlar, öyrənmə, inkişaf*

**Sheker Huseynova Seyfullayeva**
Heydar Aliyev Military Institute
https://orcid.org/0009-0003-1718-3317
sheker.huseynova@bk.ru
**Asli Gurbanova**
Heydar Aliyev Military Institute
https://orcid.org/0009-0004-5844-0225
asligurbanova7@gmail.com
**Afsana Aliyeva**
Heydar Aliyev Military Institute
https://orcid.org/0009-0008-4978-9790
afsanaaliyeva43@gmail.com


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

# Ways to Develop Communicative Skills in English Language Lessons

**Abstract**

This article aims to provide a detailed analysis of the development and improvement of communication skills in English. Understanding the essential role of communication in language learning, this study explores various methods, methodologies, and prospective approaches to enhance communication habits among language learners. By examining the essence of communicative skills and explaining practical approaches, this research offers educators important insights to optimize the development of communication skills. The article investigates the interplay of interactive skills and activities, original learning tools and materials, technology, and real-life applications to create a dynamic language-learning environment that promotes effective communication. In the modern academic context and worldwide, the ability to communicate effectively in English is one of the most critical and arguably the foremost factors. This is because it is necessary not only to apply the acquired knowledge, experience, and skills but also to present them clearly and accurately. Additionally, this scientific article aims to explore strategies and methods for developing and enhancing communication skills in foreign language lessons. The article discusses the importance of developing communication skills and offers practical advice for educators to help learners advance their communicative abilities.

***Keywords:*** *english language, communication, strategy, methods, learning, development*

## Giriş

İngilis dili dərslərində ünsiyyət vərdişlərinin inkişaf etdirilməsi qloballaşan müasir dünyada dil tədrisinin əsas vəzifələrindən biri, bəlkə də birincisidir. Ünsiyyət vərdiş və bacarıqları dedikdə əsasən danışma, dinləmə, yazma və oxuma olan dörd əsas dil bacarığı nəzərdə tutulur. Yüz illər boyu bu bacarıqların inkişaf etdirilməsi metod və strategiyaları inkişaf edərək təkmilləşib və müəyyən formaya düşmüşdür. Bir çox alim və dilçilər bu strategiyaları özünəməxsus şəkildə araşdırmış və müəyyən nəticələrə gəlmişdir (Canale & Swain, 1980).

Məqalədə bu strategiyalar əsasında formalaşan, standart halını almış müəyyən metod və strategiyalardan bəhs olunur. Bütün bu strategiya və metodları araşdırmazdan əvvəl yaxşı ünsiyyətin öyrənənlərin, daha dəqiq desək, tələbələrin həyatındakı roluna diqqət yetirmək məqsədəuyğun olardı (Celce-Murcia, 2001).

**Tədqiqat**

Yaxşı kommunikasiya bacarığı həm akademik, həm də öyrənənlərin şəxsi həyatında uğur qazanmaq üçün çox əhəmiyyətlidir. Öyrənənlər üçün fikirlərini düzgün və aydın ifadə etmək ən vacib faktorlardan biridir. Bundan başqa, effektiv dinləmək bacarığı da onların öyrənmə bacarığına əhəmiyyətli dərəcədə təsir edir (Richards, 2006). Düzgün öyrənmə bacarıqlarına yiyələnmək və onu inkişaf etdirmək gələcəkdə tələbə və şagirdlərin performansına əhəmiyyətli dərəcədə öz töhfəsini verəcəkdir. Bütün sadalanan kommunikativ vərdişlərə yiyələnən tələbələr bu vərdişlərə yiyələndikdən sonra mükəmməl ünsiyyət qura bilər, təkcə akademik mühitdə deyil, bununla yanaşı öz çevrəsində düzgün mövqeyini göstərə və özünü təsdiqləyə bilər (Nunan, 1999).

Kommunikasiya bacarığının fərdin həm akademik, həm də sosial həyatındakı rolunun vacibliyini nəzərə alaraq, bu bacarığı inkişaf etdirməyin əsas strategiya və metodlarını qruplaşdırmaq məqsədəuyğun olardı.

**Bunları aşağıdakı kimi qruplaşdırmaq və ayrı-ayrılıqda izah etmək daha asan olar (Harmer, 2007):**

- Real həyati situasiyalara əsaslanan tapşırıqlar
- Cüt və qrup işləri
- Layihə əsaslı öyrənmə
- Dinləmə və oxuma mənbələrinin müxtəlifləşdirilməsi
- Danışıq klubları
- Texnologiyadan istifadə

**Real həyati situasiyalara əsaslanan tapşırıqlar.**

Real həyati situasiyalara əsaslanaraq öyrənilən dil daha yadda qalan və effektiv olur. Çünki öyrənənlər gündəlik danışıq ifadələrini daha tez qavrayır və yadda saxlayır. Buna görə də müəllimlər gündəlik danışıq ifadələrindən istifadə etmək üçün rollu oyunlardan və simulyasiyalardan istifadə edirlər. Rollu oyunlardan istifadəyə misal olaraq, alış-veriş mərkəzində, aeroportda, restoranda, iş görüşməsində, ailə ilə danışıqlarda istifadə oluna biləcək ifadələri sadalamaq olar (Thornbury, 2005).

**Cüt və qrup işləri.**

Cüt və qrup işləri də kommunikativ bacarıqların inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edir. Bu metod özü də özlüyündə bir neçə formada özünü göstərir. Bunlara interaktiv fəaliyyətlər, müzakirə və problem həll etməyə yönəlmiş tapşırıqları misal göstərmək olar. Sadalanan bu metodlar arasından ən geniş yayılmış və effektlisi müəyyən bir mövzu ətrafında müzakirə aparmaqdır. Çünki tələbələr konkret bir mövzu ətrafında danışdıqda həm öz nitqlərini inkişaf etdirir, həm də qazandıqları təcrübəni bölüşməyi öyrənir. Bu tip müzakirələr tələbələrin həm kommunikasiya bacarığını inkişaf etdirir, həm də onların lüğət bazasını artırır (Richards & Rodgers, 2014).

**Layihə əsaslı öyrənmə.**

Layihə əsaslı öyrənmə əsasən təqdimat hazırlamaq, hər hansı video və ya foto materiallar əsasında öyrənməyə həvəsli olan tələbələr üçün optimal üsuldur. Bu metod daha çox yaradıcılığa meyilli və həvəsli tələbələrdə effektiv olur. Çünki bu üsul kreativ yanaşma vasitəsilə kommunikativ bacarıqları inkişaf etdirməyə yönəlmiş üsuldur (Larsen-Freeman, 2000).

**Dinləmə və oxuma mənbələrinin müxtəlifləşdirilməsi.**

Kommunikativ bacarıqların inkişaf etdirilməsi yollarından biri də müxtəlif dinləmə və oxuma mənbələrindən istifadədir. Dinləmə və oxuma mətnləri nə qədər müxtəlif olarsa, öyrənmə prosesi və kommunikasiya bacarıqları o qədər sürətli şəkildə inkişaf etdirilə bilər. Müxtəlif dinləmə materiallarından istifadə yeni dil öyrənənlər üçün həmişə effektiv metodlardan olmuşdur. Dinləmə materiallarına misal olaraq podcastlar, mahnılar, videolar, qısa filmlər kimi vasitələri misal göstərmək olar (Brown, 2007). Bundan əlavə, qısa hekayələr oxumaq, xəbərləri dinləmək və hər hansı bir mövzu haqqında məqalələr oxumaq da kommunikasiya bacarığına böyük dəstək verir.

Bütün bunlardan əlavə və demək olar ki, kommunikativ bacarıqların öyrənilməsində ən önəmli rolu olan metodlardan biri də danışıq klubları və ünsiyyət saatları təşkil etməkdir. Bu metod vasitəsilə öyrənilən dil təkcə nəzəriyyə ilə kifayətlənmir, birbaşa praktikada istifadə olunur.

Danışıq klubları təkcə dilin istifadəsinə deyil, həmçinin ünsiyyətin ən əsas problemlərindən biri olan utanmaq hissini ortadan qaldırır. Məlumdur ki, utancaq insanlar dildən düzgün şəkildə istifadə etməyi bacarsalar da, onların danışmağa olan kompleksi onlara dildən istifadə etməyə imkan vermir. Bu da tədricən kommunikativ bacarıqların itirilməsinə gətirib çıxarır. Bu kimi danışıq klubları dilin istifadəsinin səlis şəkildə ifadə olunmasına xidmət etməklə yanaşı, öyrənənləri kommunikativ bacarıqlardan istifadə edərək qorxmadan ünsiyyət qurmağa təşviq edir (Harmer, 2007).

Bütün bu sadalanan kommunikativ vərdişlərin istifadə olunmasına yönəlmiş metodların fonunda müasir zamanda texnologiyanın rolunu qeyd etməsək olmaz. Belə ki, bütün bu metodlar müəyyən mənada texnika və texnologiyadan asılıdır. Çünki müasir zamanda texnologiyasız bir iş görmək çətindir. Lakin demək olmaz ki, texnologiya təkcə sadalanan metodların tətbiqində istifadə olunur. Texnologiya vasitəsilə internetə birbaşa çıxışla onlayn platformalardan istifadə edərək və ya oflayn proqramlardan yararlanaraq kommunikativ bacarıqlarımızı inkişaf etdirə bilərik.

Kommunikativ bacarıqların inkişafı üçün hazırlanmış onlayn və oflayn proqram və platformalara aşağıdakıları misal çəkə bilərik: Duolingo, Quizlet, Kahoot, Padlet və sairə. Təkcə proqram və platformalarla deyil, həmçinin Zoom, Microsoft Teams və sairə bu kimi vasitələrlə dünyanın istənilən yerində olan insanlarla ünsiyyət quraraq kommunikativ bacarıqları inkişaf etdirmək olar (Warschauer & Healey, 1998).

## Nəticə

Nəticə olaraq qeyd etmək olar ki, ingilis dili dərslərində kommunikativ bacarıqların təkmilləşdirilməsi və eləcə də inkişafı üçün öyrənənləri danışmağa və dildən istifadə etməyə təşviq etmək, müasir texnologiyalardan və metodlardan istifadə etmək, real həyati situasiyalara əsaslanan fəaliyyətlərlə tətbiq etmək əsas qaydalardandır.

Öyrədənlər tələbələrin həvəsini artırmalı, motivasiyasını yüksəltməli və onlara səhv etməkdən çəkinmədən danışmaq üçün rahat şərait yaratmalıdırlar. Yalnız belə olduğu halda öyrənənlər yiyələndikləri kommunikasiya bacarıq və vərdişlərini dildə tətbiq edərək onu inkişaf etdirə bilərlər.

## Ədəbiyyat

1. Brown, H. D. (2007). *Language assessment: Principles and classroom practices*. Pearson Education.
2. Canale, M. (1980). *Theoretical bases of communicative approaches to second language teaching and testing*. Applied Linguistics Press.
3. Swain, M. (1980). *Theoretical bases of communicative approaches to second language teaching and testing*. Applied Linguistics Press.
4. Celce-Murcia, M. (2001). *Teaching English as a second or foreign language*. Heinle & Heinle Publishers.
5. Harmer, J. (2007). *The practice of English language teaching*. Pearson Longman.
6. Larsen-Freeman, D. (2000). *Techniques and principles in language teaching*. Oxford University Press.
7. Nunan, D. (1999). *Second language teaching and learning*. Heinle & Heinle Publishers.
8. Richards, J. C. (2006). *Communicative language teaching today*. Cambridge University Press.
9. Richards, J. C., & Rodgers, T. S. (2014). *Approaches and methods in language teaching*. Cambridge University Press.
10. Thornbury, S. (2005). *How to teach speaking*. Pearson Education.
11. Warschauer, M., (1998). *Computers and language learning: An overview*. Oxford University Press.
12. Healey, D. (1998). *Computers and language learning: An overview*. Oxford University Press.

Daxil oldu: 21.04.2025
Qəbul edildi: 30.08.2025